Mirqiyas Seyidsoylu,
polkovnik, Müharibə və Silahlı Qüvvələr Veteranı

"QƏDİM SKANDİNAVYADA" AĞABALA ZABULU

(əvvəli ötən sayımızda)

Bizim nümayəndə heyəti təyyarə ilə Moskvadan Kopenhagen şəhərinə gedərkən təyyarə bələdçisi elan etdi ki, təyyarəmiz, Danimarka krallığının hava məkanına daxil oldu. Bu zaman, " Qarabağ Ocağı " folklor kollektivinin musiqi rəhbəri, mərhum, tarizən Ramiz Əliyev tarda " Segah " muğamını səsləndirdi. Müğənnilər Nizami Abdullayev, Təşkilat Nəsirov və mərhum Eldar Novruzov şaqraq zəngüləli səslə oxumağa başladılar. Təyyarədəki sərnişinlərin əksəriyəti Azərbaycan dilini bilməsələrdə musiqini böyük maraqla dinləyirdilər.

Eldar Novruzov:

- Əziz dost, gəl gedək bizim ellərə,
Könlün nə istəsə, var Qarabağda.

Nizami Abdullayev:

- Ənciri - üzümü dillər əzbəri heyva Qarabağda, nar Qarabağda.

Təşkilat Nəsirov:

- İndi o yerlərdə sular coşurlar,
Bülbüllər bahara nəğmə qoşurlar.
Sevgililər tək qucaqlaşırlar,
Kaman Qarabağda, tar Qarabağda.

Sonra hər üçü səs - səsə verərək böyük şövqilə " Qarabağ şikəstəsi " ni oxumağa başladılar. Onların belə şirin zəgüləli ifasını heyrətlə dinləyən sərnişinlər gurultu alqışlarla öz sevgilərini bildirdilər...

1989 - cu ilin mayında " Qarabağ Ocağı " Xalq folklor kollektivi, görkəmli muğam ustadı, Xalq artisti Seyid Şuşinskinin 100 illik yubleyilə əlaqədar Şuşada keçirilən Birinci " Xarı - Bülbül " Beynəlxalq Folklor Festivalında elə böyük peşəkarlıqla çıxış etdilər ki, xarici dost ölkələrdən gələn kollektiv üzvləri heyrətlərini gizlədə bilməyib bizim kollektivə yaxınlaşdılar. Bunlarln arasında ABŞ, Yaponiya, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan, Qazaxıstan, Qırğızıstan, Litva, Belarusiya, Başqırdıstan və başqa ölkələrdən gələn nümayəndələr, bizim kollektivin üzvlərinə yaxınlaşıb tanış olur, onları maraqlandıran suallara cavab alır və şəkil çəkdirirdilər. Həmin vaxt, " Qarabağ Ocağı " folklor kollektivi festivalın ən yüksək mükafatına layiq görülmüşdür. Çox təsüflər olsun ki, dırnağarası qonşularımız, erməni faşistlərinin 1988 - ci ildən başlayaraq ölkəmizə qarşı apardığı təcavüzkar müharibə on illər boyu bizi bu, tədbirlərdən didərgin saldı. Şükürlər olsun ki, 2020 - ci ilin sentyabrnda Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyilə Silahlı Qüvvələrimizin apardığı əks - hücum döyüş əməliyyatları, 44 gün ərzində düşmənləri məğlub edərək işğalda olan torpaqlarımızı azad etdi. Yağı düşmən və havadarları layiqli cavabını aldı. İndi Azad Şuşada gözəl - bayram şənlikləri keçirilir. İnanırıq ki, gələcəkdə " Qarabağ Ocağı " əvvəlki illərdəki şöhrətini özünə qaytarıb bizi sevidirəcək.

Bu gün, xalqımızın azadlıq və istiqlal ayı olan xoşbəxt may ayında böyük ustad sənətkar, xalq xanəndəsi Ağabala Abdullayevin anadan olmasının 115 - ci ili tamam olur. Ruhun şad - məkanın cənnət olsun ustad sənətkar.

Ağabala Məmmədbağır oğlu Abdullayev 28 may 1910 - cu ildə Zəngəzur qəzasının Çərəli kəndində anadan olub. Çar Rusiyası ilə Qacarlar dövləti arasında 1828 - ci ildə bağlanmış bədnam müqavilədən sonra Azərbaycan iki yerə, şimala və cənuba parçalandı. Həmin illərdə cənubda şah rejiminin yerli əhaliyə qarşı törətdiyi haqsızlığa və ədalətsizliyə boyun əyməyən Ağabala Abdullayevin ulu babası, ailəsilə birlikdə Sərab mahalından Zəngəzur mahalına, oradan isə Füzuli şəhərinə köçərək burada məskunlaşıblar. Balaca Ağabala ilkin ibtidai təhsilini Füzuli şəhərində almışdır. Xalq artisti, Azərbaycanda prşəkar vokal ifaçılığı məktəbinin banisi, Bülbül 1927 - ci ildə Füzuli şəhər klubunda yaradıcılıq ezamiyətində olan zaman, gənc Ağabalanın səsini bəyənir və ona şəhər klubunda ifaçılıq sənətini öyrənməyi tövsiyə edir. 1933 - 1937 - ci illərdə Füzuli şəhər klubuna rəhbərlik etmiş Xalq artisti Seyid Şuşinski Ağabala Abdullayevə muğam sənətinin sirlərini dərindən öyrətmiş və ona bu sahədə müəllimlik etmişdir. O, ilk günlərdən " Rast ", " Segah - Zabul " muğamları, " Arazbarı ", " Qarabağ Şikəstəsi " ritmik muğamları, " Qaçaq Nəbi " , " Şamama " mahnılarını böyük şövqilə ifa edərək tamaşaçıların rəğbətini qazanmışdı. 1938 - ci ildə Füzulidə yaradılan " Kolxoz - Sovxoz " teatrına opera müğənnisi kimi qəbul edilir. Teatrda Ü. Hacıbəyovun " Leyli və Məcnun " da Məcnun, " Əsli və Kərəm " də Kərəm, " Aşıq Qərib " də Qərib, " Arşın mal alan " da Süleyman bəy və s.i. əsərlərdə biri - birindən fərqli obrazlara musiqili həyat bəxş edərək tamaşaçıların rəğbətini qazanmaqla yanaşı, teatrşünasların və sənət adamlarının fövqəl maraqlarına səbəb olmuşdur. Füzuli Xalq Teatrının rejisoru olmuş, mərhum rejisor və aktyor Adışirin Əliyev Ağabala Abdullayev sənətinin gücü haqqında maraqlı bir hadisə danışardı. " Bir gün, Füzuli teatırı, vaxtilə bədnam qonşularımız yaşamış olduğu Xocavənd qəsəbə mədəniyyət evində böyük Üzeyir Hacıbəyovun " Əsli və Kərəm " opera tamaşasını göstərirdi. Tamaşa salonu tam dolu olmasına baxmayaraq, erməni tamaşaçılar yerdən döşəmə üzərində də sıx - sıx oturmuşdular. Ağabala tamaşada Kərəmi oynayırdı. Tamaşanın finalında Ağabala Əslinin atası Keşişə müraciətdə, necə ahı - fəqan edərək yanıqlı səslə oxuyurdusa bütün tamaşaçılar göz yaşı tökür, ağlayırdılar. Birdən tamaşa salonundan bir erməni tamaşaçı ayağa qalxaraq Ağabalaya dedi ki, ay Ağabala sənə qurban olum, bu namərd Keşişə yalvarıb özünü üzmə. Mənim evdə dörd qızım var, gedək bizə, hansını istəsən onu sənə verəcəm... " Bu sənət adamlarının onun istedadına olan hörmət və heyrətin təzahüri idi. O, həm də ifa tərzilə Azərbaycan muğam sənətində yeni cığır açaraq Ağabala məktəbinin bünövrəsini qoydu.Xalq artistləri İslam Rzayev, Teymur Mustafayev, Qəndab Quliyeva, Əməkdar artistlər Süleyman Abdullayev, Nizami Abdullayev, tanınmış sənətkarlar, mərhum, Təvəkkül Musayev, mərhum, Eldar Novruzov, Təşkilat Nəsirov, Eldəniz Məmmədov, Qoçaq Əsgərov, Nadir Bayramlı, Manaf Ağayev və bir çox sənət adamları - xanəndələr, ecazkar Ağabala sənətindən bəhrələniblər.

Oğlu, mərhum bəstəkar, Zöhrab Abdullayev, atasının sənətindən təsirlənərək " Olmaz - olmaz ", " Şamama ", " Vətənim Füzuli " mahnılarını yazmışdı. Hazırda bu mahnılar Azərbaycan Dövlət radiosunun qızıl fondunda saxlanılır. Təssüf ki, amansız ölüm onu yaradıcılığını davam etdirməyə imkan vermədi. O, gənc yaşlarında dünyasını dəyişdi. Allah rəhmət eləsin.

Bu gün də, atasının sənət yolunu şərəf və ləyaqətlə davam etdirən Respublikamızın Əməkdar artisti Nizami Abdullayev xalqımızın musiqi sənətini, mədəniyyətini, incəsənətini göz bəbəyi kimi qoruyur və yüksək peşəkar ifaçılıq qabliyətilə sevə - sevə təbliğ edir.

Abdullayev uzun illərdir Azərbaycan Silahlı Qüvvələrinin nümunəvi Hərbi Orkestirinin solisti olaraq hərbi Vətənpərvərlik mahnılarının peşəkar ifaçısıdır Əmisi Zöhrabın adını daşıyan, hüquq mühafizə orqanlarında xidmət edən 2-ci Zöhrab Abdullayev həm də həvəskar şəkildə babasının və atasının musiqi sənətini davam etdirir. 1990-cı ildə Füzuli rayon İcrayyə Komitəsinin " Ağabala Abdullayevin anadan olmasının 80- illik yubley tədbirlərinin təşkili - keçirilməsi və adının əbədiləşdirilməsi haqqında " tarixi qərarı olmuşdur. Qərara görə 2- nomrəli Füzuli şəhər Uşaq İncəsənət məktəbi Ağabala Abdullayevin adına verildi. Bu məqsədlə Füzuli Mədəniyyət Sarayında, rayon ictimaiyyətinin, və rəhbərliyinin, rayon Partiya Komitəsinin Birinci Katib Aslan Mehdiyevin iştrakı ilə təntənəli yubley tədbiri keçirildi. Həmin yuley tədbirində Ağabala Abdullayevin rayonda adının əbədiləşdirilməsi haqqında Rayon İcrayə Komitəsinin qərarı elan edildi.

Bu gün, Füzuli rayon İcra Hakimiyyətinin Başçısı hörmətli Alı müəllim Alıyevdən xahiş edirik ki, ustad sənətkarımız, Xalq xanəndəsi Ağabala Abdullayevin yubley tədbirlərinin rayon mədəniyyət ocaqlarında keçirilməsi haqqında müvafiq vəzifəli şəxslərə tapşırıq verərdi. Biz, inanırıq ki, böyüməkdə olan, yeniyetmə və gənclərimizin Vətənpərvərlik ruhunda tərbiyə almasına, milli - tarixi keçmişimizə və milli - mənəvi dəyərlərimizə bağlılıq və inam hissilərini aşılayan belə xeyirxah tədbirlərimiz çox olacaq.

Ruhun şad olsun ustad sənətkar!